**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİ VƏ "CƏNUB QAZ DƏHLİZİ"

İxtisas: 5901.01 – Beynəlxalq münasibətlər
Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Şəbnəm Şahvələd qızı Həsənova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI-2023**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | Siyasi elmlər doktoru, professor<br>**Elman Xudam oğlu Nəsirov** |
| Rəsmi opponentlər: | Siyasi elmlər doktoru, professor<br>**Hicran Kamran qızı Hüseynova** |
| | Siyasi elmlər doktoru, professor əvəzi<br>**Elşad Mirbəşiroğlu** |
| | Siyasi elmlər üzrə fəlsəfə doktoru<br>**Nazilə Bəxtiyar qızı Durmazoğlu** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

**Dissertasiya şurasının sədri:**

Akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi:

siyasi elmlər doktoru, professor əvəzi
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri:

siyasi elmlər doktoru, professor
**Elçin İldırım oğlu Əhmədov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Beynəlxalq münasibətlər sistemində enerji təhlükəsizliyi problemlərinin tədqiqat nəticələri göstərir ki, enerji təhlükəsizliyi dövlətlərin milli təhlükəsizliyinin struktur elementlərindən biri olaraq həlledici yerə malikdir.[1] Əgər Samuel Hantinqton yaşadığımız XXI əsri dünya sivilizasiyalarının toqquşması əsri kimi xarakterizə edirdisə, müasir siyasi reallıqlar kontekstində bir sıra siyasi ekspertlər dünya siyasətinin aparıcı amili kimi dövlətlərin enerji ehtiyatlarına malik olub-olmaması ilə səciyyələndirirlər.[2] Hətta bəzi nüfuzlu ekspertlər hesab edirlər ki, "müasir dünyanın siyasi mənzərəsi daha hərbi bloklara mənsubiyyətlə yox, enerji ehtiyatlarına maliklik və malik olmamaq üzrə bölgüylə müəyyən ediləcək".[3]

Enerji təhlükəsizliyinin siyasi məfhum kimi meydana çıxmasının tarixi başlanğıcı vardır. Birinci dünya müharibəsi ərəfəsində Böyük Britaniyanın Admirallığın Birinci Lordu Uinston Çörçill ingilis donanmasının gəmilərinin enerji qaynağını kömürdən neftə keçirtmək haqqında tarixi qərar qəbul etdi. Çörçill ingilis donanmasını alman donanmasından daha sürətli etmək niyyətində idi. Lakin bu keçid Kral Dəniz Qüvvələrinin təkcə Uelsdəki kömürə deyil, o dövrdə Fars körfəzindən gələcək neft tədarükünə olan ehtiyacın vacibliyini də ifadə edirdi. Beləliklə, enerji təhlükəsizliyi milli strategiyanın əsas məsələsinə çevrildi.[4]

Enerji təhlükəsizliyi bu gün də dünya siyasi diskursunun bir nömrəli gündəm mövzusudur. Məhz bu aktual amil nəzərə alınmaqla Avropanın artan enerji ehtiyacı, son illərdə enerji təchizatı ilə bağlı yaşadığı çətinliklər fonunda Xəzər hövzəsinin enerji ehtiyatlarının zənginliyi, Azərbaycanın da bir dövlət kimi illər ərzində konstruktiv siyasət yürütməklə müxtəlif regional və qlobal layihələrdə, dünya siyasətinin gündəliyində dayanan məsələlərdə beynəlxalq münasibətlər sisteminin

---

[1] Cornell, P., E., Energy and the Three Levels of National Security: Differentiating Energy Concerns within a National Security Context pp. 63 https://www.jstor.org/stable/26326186

[2] Həsənova, Ş. Azərbaycanın uğurlu enerji təhlükəsizliyi siyasəti // Xalqqazeti. – 2019, 2 noyabr. – s. 2.

[3] Nəsirov, E. Qlobal enerji təhlükəsizliyi problemi və "Əsrin müqaviləsi"// Yeniazərbaycan qəzeti. – 2019, 19 sentyabr. – s.6

[4] Yergin D., The Quest: Energy, Security and the Remaking of the Modern World, New Tork Times Publication, London, 2012 pp. 59-82

fəal, bir o qədər də məsuliyyətli və etibarlı üzvü kimi çıxış etməsi reallığı kontekstində Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm amilə çevrilməsi işini artırdı.

Ümumilikdə Avropanın enerji təhlükəsizliyi siyasətinin təmin olunması və bu işdə Cənub Qaz Dəhlizinin alternativ kimi çıxış etməsi indiki mərhələdə ən aktual məsələlərindən biri kimi səciyyələndirildiyi üçün təhlil olunan mövzu Avropanın, Cənub Qaz Dəhlizinə cəlb olunan ölkələrin, layihəyə qoşulmaq istəyi göstərən tərəflərin, həm də bütövlükdə elmi dairələrin, geniş siyasi diskursun diqqətini yaxından cəlb etmiş, onun ətrafında intensiv elmi-tədqiqat işləri geniş xarakter almış, mövzu ilə əlaqədar olaraq monoqrafiyalar çap olunmaqda, müzakirələr aparılmaqdadır. Çünki bu məsələ həm də Avropa dövlətlərinin Xəzər regionu dövlətləri ilə münasibətlərində davranışlarının ardıcıllığını, fəaliyyətlərinin məntiqini və gələcək trendlərini müəyyənləşdirmək üçün geniş imkanlar təqdim edir. Bu baxımdan da tədqiqat mövzusunun aktuallığını aşağıdakı müddəalarla ifadə etmək olar:

Keçmişdə Moskva, Kiyev və Minsk arasındakı zəif və bəzən çox kəskin münasibətlərin baş verməsi, Avropanın bəzi bölgələrinə təbii qaz axınının dayandırılması, reallaşdırılacaq layihələrdə Avropa İttifaqı ilə Rusiya arasında dərin fikir ayrılıqlarının meydana çıxması və onların bəzi tranzit ölkələrdən yan keçməsi nəticəsində son illərdə bəzi Avropa səlahiyyətliləri, Rusiyanın təbii qazının Avropaya kəsilməsi və ya məhdudlaşdırılması ilə əlaqədar narahatlıq keçirməyə başladılar. Bütünlüklə Rusiya qazından asılı olduqları üçün Şərqi Avropanın bəzi ölkələri bu proseslərdən daha dərindən təsirləndilər.[5] Enerji təhlükəsizliyinin təmin edilməsi Avropanın əsas vəzifələrindən biri kimi aktuallaşdı. Bu konteksdə araşdırmaların aparılması mövzunun aktuallığı baxımından xüsusi əhəmiyyət kəsb edir və bunu şərtləndirən əsas amillərdən birincisidir.

Tədqiqat mövzusunun aktuallığını zəruri edən mühüm məsələlərdən biri də ondan ibarətdir ki, Xəzəryanı dövlətlərlə, xüsusilə də Azərbaycanla Avropa arasında münasibətlərdə enerji ehtiyatları zəminində davam edəcək əlaqələr hələ uzun illər öz aktuallığını və əhəmiyyətini qoruyub saxlayacaqdır. Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan,

---

[5] Ratner M., Belkin P., Nichol J., Woehrel S., Europe’s Energy Security: Options and Challenges to Natural Gas Supply Diversification, Congressional Research Service, August 20, 2013 pp. 1

Albaniya, İtaliya kimi dövlətlər Cənub Qaz Dəhlizində iştirak edir. Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro kimi üç Balkan ölkəsi layihəyə qoşulmaq niyyətindədir ki, Azərbaycan da bu məsələyə olduqca müsbət yanaşır. Çünki bu məsələ həm də dövlətlərlə Azərbaycan arasında ticarət dövriyyəsinə də təkan verəcək.[6]

Nəzərə alsaq ki, enerji təhlükəsizliyinə olan diqqət artan yüksək neft və qaz qiymətləri ilə əlaqələndirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirir ki, "Bizim qazımız müqavilə əsasında alındı və qiymətlə bağlı, belə deyək, qaz böhranı zamanı bizim istehlakçılar heç bir dəyişiklik hiss etmədilər".[7] Məhz bu da mövzunun aktuallığını şərtləndirən əsas amillərdəndir.

Həmçinin, terror təhlükəsi, bəzi ixracatçı ölkələrdəki qeyri-sabitlik, geosiyasi rəqabət kimi amillər enerji təhlükəsizliyinin təmin olunmasında Avropanı bu ölkələrə deyil, daha fərqli regionlara meyilləndirdi. Məsələn, Şimali Afrika Rusiyanın təbii qaz tədarükünə etibarlı alternativ ola bilərdi. Xüsusilə də Liviyada və Misirdə qlobal siyasi qarışıqlıq dalğasının nəticəsi olan və "Ərəb Baharı" kimi tanınan rejim dəyişikliyi bu ölkələrdən təbii qaz çıxışı və ixracının inkişafı üçün perspektivli şans qarşısında əngəl yaratdı. Liviya və Misirin böyük qaz ehtiyatlarına sahib olmasına baxmayaraq, onların ixracı yürüdülən daxili siyasət nəticəsində əngəllənmişdir.[8] Məhz bu amil əsas götürülməklə Azərbaycan daha etibarlı mənbə qismində görülmüşdür. Odur ki, regional və qlobal əhəmiyyətli layihələr reallaşdırılan zaman ölkənin siyasi və ictimai sabitliyi mühümdür. Bu barədə Ümummilli lider Heydər Əliyev demişdir: "Hər hansı investor üçün ən mühüm cəhət bu və ya digər ölkədə ictimai-siyasi şəraitin necə olmasıdır. Ölkəmizə gələn hər bir investor özünün təkliflərinə müvafiq olan dəstək və yardım ala bilər, ən başlıcası isə mehriban münasibətlərlə qarşılaşacaqdır. Çünki biz belə əməkdaşlığı

---

[6] Sadıqlı, F. "Cənub qaz dəhlizi" yeni əməkdaşlıq formatının təməlini qoyur// Azərbaycan qəzeti. – 2021, 14 yanvar noyabr. – s. 2.

[7] "Prezident İlham Əliyev: Azərbaycan qazı müqavilə əsasında alındı və qaz böhranı zamanı heç bir qiymət dəyişikliyi olmadı"// Azərbayacan qəzeti. -2021, 18 dekabr

[8] Hasanova, Sh. Sh., "Energy security policy of Europe and Southern Gas Corridor Project" // "Dövlət İdarəçiliyi" Nəzəriyyə və təcrübə,– Bakı: 2019, N-2 (66), pp. 281-290

istəyirik, arzu edirik, ona maraq göstəririk."[9] Məhz bu amil nəzərə alınaraq əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan bu gün də cənab Prezident İlham Əliyev tərəfindən yürüdülən uğurlu daxili və siyasətin əsas konturları ilk növbədə məhz Azərbaycan xalqının sülh, sabitlik, təhlükəsizlik şəraitində yaşaması üzərində quruldu ki, bu amilin özü də ölkəmizi xarici investorlar üçün son dərəcə cəlbedici bir ölkəyə çevirmişdir.

Təhlükəsizlik məsələsinin vacibliyi aqrumentini gücləndirmək üçün 27 sentyabr -10 noyabr 2020-ci il tarixləri arasında 44 günlük II Qarabağ müharibəsini də mütləq nəzərə almalıyıq ki, faktiki olaraq ölkədə müharibə getməsinə baxmayaraq Cənub Qaz Dəhlizinin sonuncu seqmenti hesab olunan Trans Adriatik Boru kəmərinin yekunlaşdırılması işində heç bir maneə və ya gecikmə baş verməmiş, müharibə bitdikdən qısa müddət sonra - 31 dekabr 2020-ci ildə Azərbaycan təbii qazı tarixdə ilk dəfə olaraq Avropaya ixrac olunmağa başladı.

2022-ci ilin əvvəllərindən qaz qiymətlərindəki artmada siyasi faktorlar ön plana keçir. Ukrayna-Rusiya müharibəsi və bu kontekstdə baş verən proseslər Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi prosesinə birbaşa təsir edir. Lakin bu yeganə təsir deyil. Burada digər səbəblər də mövcuddur. Birincisi,  bu, təbii proses olan qış dövrü ilə bağlıdır. Avropa 2020-ci ildə anbarları 76% doldura bilirdisə, 2021-ci ilə bu anbarlar sadəcə 56% doldu. Bu statistik rəqəm isə ondan xəbər verdi ki, Avropa qışa hazır deyil. İkincisi, Rusiya-Ukrayna müharibəsi. Avropanın 40% qaz təchizatını Rusiya təmin edir.

Təbii ki, baş verən hadisələr, Rusiyanın qazı azaltması Avropaya mənfi təsir edir. Üçüncüsü isə qaz tələbatı ümumiyyətlə Avropada 3% artıb. Bu artım da prosesə təsir edir.[10]

Həmçinin ölkələrin iqtisadi genişlənməsini təmin etmək üçün enerjiyə olan ehtiyacları daha da artırır. Çox uzaq gələcəkdə deyil, qarşıdan gələn onilliklərdə dünyanın enerji tələbatını ödəmək üçün kifayət

[9] Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. Beşinci kitab, çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. B., Azərnəşr 1998. 500 səh. (səhifə 21)

[10] Phillips, J., Washtell, F., "Gas prices jump 17% in a day as two more energy firms collapse and consumers are warned to brace for bills soaring by £475-a-year amid new fears about European supplies 17 novermber 2021 (internet resursu) https://www.dailymail.co.uk/news/article-10210741/Gas-prices-jump-17-day-consumers-warned-brace-bills-soaring-475-year.html

qədər mənbələrin olub-olmayacağına dair narahatlıq artmaqda davam edir ki, bu da mövzunun aktuallığını şərtləndirən digər əsas amillərdəndir. Həmçinin, Xəzəryanı dövlətlərlə, xüsusilə də Azərbaycanın müharibədə qalib gəlməsi və regionda gücünün və nüfuzunun artması ilə Azərbaycanla Avropa arasında münasibətlərdə enerji ehtiyatları zəminində davam edəcək əlaqələr aktuallığını və əhəmiyyətini hələ uzun illər qoruyub saxlayacaqdır.

Yuxarıda qeyd edilən amillər, eyni zamanda müddəalar həm Avropa üçün, həm də ölkəmiz üçün seçilmiş tədqiqat mövzusunun kifayət qədər aktuallığını, dərin bir sistematik elmi təhlilin zəruriliyini müəyyənləşdirir.

Qeyd edilən amillər Avropanın enerji təhlükəsizliyinin təmin olunması məsələsində alternativ enerji təminatçılarının axtarılması və bu məsələdə Cənub Qaz Dəhlizinin reallaşdırılması qədər daha da genişləndirilməsi, Avropanın strategiyasının xarakterinin müəyyənləşdirilməsi dissertasiya səviyyəsində araşdırılmasını vacib və aktual edir. Təsadüfi deyildir ki, Avropa Komissiyası hətta sənədlərində enerji təhlükəsizliyini "Enerji bizim cəmiyyətimizin həyatı üçün lazım olan qandır" deyərək obrazlı şəkildə ifadə də edir.[11]

Tədqiqat mövzusunun müxtəlif aspektlərinə bir çox Azərbaycan və xarici müəlliflərin əsərlərində müraciət olunmuşdur. Bu baxımdan, ilk növbədə Azərbaycanın enerji strategiyası ilə bağlı Azərbaycan tarixində silinməz iz qoyan Ümummili lider Heydər Əliyevin zəngin tarixi təcrübəsinə, zəkasına və dünyagörüşünə əsaslanan "Heydər Əliyevin yeni neft strategiyası"[12] bircildli kitablar toplusu və "Müstəqilliyimiz əbədidir"[13] çoxcildli kitablar toplusu əvəzolunmaz əsərdir.

Ümummili lider Heydər Əliyevin uğurlu siyasətinin davamçısı, müstəqil Azərbaycan Respublikasının davamlı inkişafının təminatçısı Prezident İlham Əliyevin "İnkişaf-məqsədimizdir"[14] kitablar toplusu isə dövlətimizin dinamik inkişaf xəritəsi, apardığı daxili və xarici siyasətin,

---

[11] Communication from the Commission to the European Parliament, The Council, The European Economic and Social Committee and The Committee of The Regions Energy 2020, A strategy for competitive, sustainable and secure energy, Brussels, 10.11.2010, p.2

[12] Heydər Əliyevin Neft strategiyası. 2-ci hissə. Bakı: 2001, -467 s.

[13] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Onbeşinci kitab. Bakı: Azərnəşr, 2005, - 528 s.

[14] Əliyev, İlham Heydər oğlu. İnkişaf - məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr,məktublar, məruzələr, müraciətlər / İ. H. Əliyev; bur. məsul R.Ə. Mehdiyev.114-cü kitab: avqust 2021 – oktyabr 2021.- Bakı: Azərnəşr, 2021.- 392 s.

eləcə də əldə edilmiş nailiyyətlərin hesabatı kimi dəyərləndirilə bilər. Zəngin elmi mənbə olaraq hər iki əsərdə elmi işin müstəqillik əldə ediləndən bu günə kimi Azərbaycanın enerji siyasəti məsələsinin bir sıra mühüm aspektlərinin təhlili yer alır.

Bütövlükdə mövzuya aid ədəbiyyatı təhlil edərkən əksər hallarda obyektivlikdən kənar, daha dəqiq ifadə etsək Avropanın enerji təhlükəsizliyinin təmin olunması məsələsində əsasən rus enerji mənbələrinin xüsusi əhəmiyyət kəsb etməsi tərəflərdə - Avropa və rus enerji analitiklərində fərqli, öz baxış bucaqlarından və sözsüz ki, maraq dairələrindən analiz etmək meyillərini açıq duymaq olur. Belə ki, qərb və qərbyönümlü ədəbiyyat əks cəbhə kimi qarşı tərəfi enerji resurslarından siyasi alət kimi istifadə etməkdə, süni qiymət artımlarında, Avropaya enerji təhlükəsizliyinin təmin olunması istiqamətində alternativ yollar axtarışına siyasi təsir vasitələri ilə mane olmaqda ittiham edir.

Dissertasiya mövzusu ətrafında Rusiya tədqiqatçıları da kifayət qədər geniş elmi-tədqiqat işlərini həyata keçirmişlər, məsələyə ardıcıllıqla və sistemli səkildə diqqət ayırmışlar. Məsələn, rus tədqiqatçı Şabelnikov O.V. hesab edir ki, enerji mütərəqqi inkişaf üçün lazımi şərait yaradır və ölkənin rifahına, çiçəklənməsinə birbaşa təsir göstərir. Tədqiqatçı sabit enerji balansının təmin edilməsini qlobal təhlükəsizliyin amillərindən biri hesab edir və bu baxımdan da bildirir ki, Avropa İttifaqı üçün ixracatçı və tranzit ölkələrlə siyasi dialoq və əməkdaşlıq enerji sabitliyinin təmin edilməsində əsas amildir. Yəni, Avropa İttifaqı ölkələri üçün enerji təhlükəsizliyinin təmin edilməsinin siyasi aspektləri əsasdır.[15]

Birincisi, burada qarşılıqlı asılılığın mövcudluğu görünür. Belə ki, Rusiya Avropanın əsas enerji təminatçısıdırsa, Avropa da Rusiya qazı üçün böyük bazardır. Məhz bu önəmli amillər nəzərə alınaraq tədqiqat işində obyektiv yanaşmaların ortaya qoyulması və tədqiqat mövzusuna dair tarixi, siyasi və digər kontekslərdən olan materialların və sənədlərin öyrənilməsi araşdırmanın məntiqi özəlliyini dərk etməyə imkan verir. İkincisi isə Cənub Qaz Dəhlizinin reallaşdırılması və digər məsələlərdə Azərbaycanın xarici siyasətində balansı qoruyaraq ortaya qoyduğu mövqe olduqca önəmlidir.

[15] О.В. Шабельникова, Проблема Обеспечения Энергетической Безопасности во Взаимоотношениях Европейского Союза и Азербайджана, Вестник РУДН, серия Международные отношения, Москва, Россия. 2014, No 2

Bu baxımdan da 2019-cu ilin 20 fevral tarixində Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı keçirilən zaman Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirmişdir: "Cənub Qaz Dəhlizi enerji şaxələndirilməsi layihəsidir. Enerji resurslarının şaxələndirilməsi istehsalçı, istehlakçı və tranzit ölkələr üçün çox vacibdir. Hesab edirəm ki, biz burada yaxşı balans tapa bilmişik - yəni, istehsalçı olan Azərbaycan və istehlakçı və tranzit dövlətlər arasında. Maraqların balansı bu layihənin uğurunu şərtləndirir. Çünki biz bir-birimizin ehtiyac və narahatlıqlarını anlamağa çalışırıq."

Bu səbəbdəndir ki, Cənub Qaz Dəhlizinə qoşulmayan ölkələr indi sözügedən layihəyə qoşulmaqda böyük maraq göstərirlər. Çünki Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan bu meqalayihə, nəticə etibarilə, dövlətlər arasında əməkdaşlığın güclənməsinə gətirib çıxarır. Bu layihədə təşəbbüskar ölkə kimi Azərbaycanın, tranzit ölkələrin, həmçinin istehlakçı ölkələrin hər birinin ayrılıqda mənafeləri tam şəkildə təmin edilmişdir. Sübut olundu ki, Cənub Qaz Dəhlizi azad rəqabət layihəsidir.

Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə reallaşdırılan sözügedən layihə, ilk növbədə, enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi layihəsidir. Həm də bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyev VIII Qlobal Bakı Forumunun açılışında çıxışı zamanı bildirmişdir ki, "Azərbaycan qazının çatdırıldığı ölkələrdə qaz qiyməti böhranı yoxdur və heç kim soyuqdan donmayıb. Bu bir daha onu göstərir ki, Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir."[16]

Tədqiq edilən mövzu ilə əlaqədar məsələlər Daniel Yerginin "Axtarış" (The Quest),[17] "Mükafat" (The Prize)[18], Filippos Proedrou-nun "Avropa İttifaqının (Aİ) qaz sektorunda enerji təhlükəsizliyi: inkişaf edən dinamikalar, siyasi dilemmalar və perspektivlər" (EU Energy Security in

16 "Prezident İlham Əliyev: Azərbaycan qazının çatdırıldığı ölkələrdə qaz qiyməti böhranı yoxdur və heç kim soyuqdan donmayıb" Trend.az.- 2021, 4 noyabr (internet resursu) https://az.trend.az/azerbaijan/politics/3507557.html

[17] Yergin, D., The Quest: Energy, Security and the Remaking of the Modern World, New Tork Times Publication, London, 2012 pp. 59-82

[18] Yergin, D., The Prize: The Epic Quest for Oil, Money, and Power, 885 pages

the Gas Sector: Evolving Dynamics, Policy Dilemmas and Prospects)[19] adlı əsərlərində də öz əksini tapmışdır.

Enerji təhlükəsizliyinin tərifi inkişaf etmiş ölkələr üçün əlverişli qiymətlərlə kifayət qədər tədarükün olmasıdırsa, enerji ixrac edən ölkələr öz ixracatlarında "tələbat təhlükəsizliyini" qorumağa çalışırlar ki, bu da hökumət gəlirlərinin böyük hissəsini meydana gətirir.[20]

2013-cü ildə Yale Universitetində etdiyi çıxışda Daniel Yergin (Yale Universiteti, 2013) enerji təhlükəsizliyinin üç yeni ölçüsü olduğunu müdafiə etdi: (1) terrorizm kimi təhdidlərə münasibətdə fiziki təhlükəsizlik; (2) elektrik enerjisi, yanacaq, fövqəladə hallar xidmətləri və s.-nin eyni vaxtda kəsildiyi və bütün regionların hərəkətsiz qaldığı qasırğa və super fırtına kimi təbii fəlakətlər nəticəsində yaranan inteqrasiya olunmuş enerji zərbələri; və (3) böyük miqyaslı istehsala təsir edə bilən və qlobal təxribat yarada bilən kibertəhlükələr.

Kitabda əsas diqqət neft sektorunda enerji təhlükəsizliyinə yönəldilsə də, müəllif bildirir ki, son onilliklərdə qaz sektorunun əhəmiyyəti artıb və artan liberallaşma qaz təchizatının təhlükəsizliyi üçün kritik suallar doğurub. Müəllif qaz sektorunda Aİ-nin enerji təhlükəsizliyinin vəziyyətini, onun xarici təchizatçılarla qarşılıqlı asılılığını və mövcud qaz strategiyasını işıqlandırır. O, enerji şirkətlərinin, Aİ-yə üzv dövlətlərin və Aİ təsisatlarının rolunu araşdırır, qaz sektorundakı əsas inkişafları müəyyənləşdirir və bu cür fundamental dəyişikliklərin yaratdığı əsas problemlərə diqqət yetirir. Müəllif Aİ-nin əsas qaz tədarükçüsü olan Rusiya ilə, eləcə də alternativ təchizatçılarla münasibətlərini diqqətlə araşdırır, müzakirə olunan əsas infrastruktur layihələrini və onların əsas nəticələrini təfərrüatlandırır və üzv dövlətlərin enerji təhlükəsizliyinə nail olmaq üçün həyata keçirdikləri əsas siyasətləri, eləcə də Aİ-nin daxili ziddiyyətlərini müzakirə edir.

Tədqiqatçıların geniş spektri enerji təhlükəsizliyi konsepsiyasının müxtəlif ölçülərini müəyyən etməkdə maraqlı idi. 1976-cı ildə olduğu kimi, Willrich Manson enerji təhlükəsizliyini "milli iqtisadiyyatın siyasi cəhətdən məqbul bir şəkildə fəaliyyət göstərməsinə imkan vermək üçün kifayət qədər enerji təchizatının təmin edilməsi" olaraq təyin etdi. Bu

---

[19] Filippos Proedrou, EU Energy Security in the Gas Sector: Evolving Dynamics, Policy Dilemmas and Prospects: Pp. 192. Farnham: Ashgate. 2012.

[20] Yergin D., Ensuring Energy Security Foreign Affairs 85(2):69 March 2006 p.111-112

tərifdən Willrich enerji təchizatı ilə dövlətin siyasi fəaliyyəti arasında birbaşa əlaqə yaratdı.[21]

1993-cü ildə Duqlas Bohi və Micheal Toman enerji təhlükəsizliyi ilə bağlı öz baxışlarını bunun əksini, yəni "Proseslərin dəyişməsi səbəbindən rifahın itirilməsi" kimi müəyyən edərək təqdim etdilər, məsələn, münaqişələr nəticəsində neft qiymətlərinin dəyişməsi.[22] 1997-ci ilin sonlarında Tomas Neff enerji təhlükəsizliyini həm milli, həm də regional təhlükəsizliyə təsir edən əsas amil hesab edirdi. O, regional münaqişələrin həllində ticarət və enerji sahəsində əməkdaşlığın oynaya biləcəyi həlledici rola istinad edir.[23]

Azərbaycan tədqiqatçılarının bir qrupu Azərbaycanın neft-qaz ehtiyatları və xarici siyasəti məsələsinə regional və beynəlxalq təhlükəsizlik kontekstindən yanaşmışlar.

Belə müəlliflərdən H. Paşayev, E. Əhmədov, E. Nəsirov, B. Aslanbəyli, İ. Qurbanov[24] və s. müvafiq istiqamətdə ciddi elmi-tədqiqat işləri həyata keçirmişlər, monoqrafiyalar, elmi məqalələr nəşr etdirmişlər ki, hər birinin məsələ ilə bağlı qənaətləri tədqiq olunan mövzu baxımından maraq doğurur. Professor E. Nəsirovun "Azərbaycanın neft və qaz sənayesi, nailiyyətlər və perspektivlər", "Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti" başlıqlı məqalələrində Azərbaycanın neft-qaz ixracının şaxələndirilməsi siyasəti nəticəsində dünyanın ən nüfuzlu transmilli korporasiyaları ilə qarşılıqlı faydalı əməkdaşlığın baş tutması məsələləri dərindən təhlil olunmuşdur.[25]

---

[21] Mason Willrich, Energy & World Politics, January 1, 1978, p. 252

[22] Bohi, D., Toman, M., 1993 Energy security: externatlities and policies" p.1093

[23] Neff, T., Improving Energy Security in Pacific Asia: Diversification and Risk Reduction for Fossil and Nuclear Fuels. 1997 p. 1).

Ahmed Elbassoussy, European energy security dilemma: major challenges and confrontation strategies,30 June 2019

[24] Paşayev H. M. Bir səfirin manifesti. Bakı, "Şərq-Qərb", 2007, 248 s.; Əhmədov E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. Bakı, "Letterpress", 2013, 452 s.; Nəsirov E. Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1999) Bakı, 1999, 29 s.; Aslanbəyli, B. (2019). Avropa İttiffaqı və Rusiya üzrə mühazirələrin qeydləri. ADA Universiteti mühazirələr, BDU Universiteti mühazirələr; Qurbanov İ. "Azerbaijan and the Council of Europe", 2017 https://www.academia.edu/17531321/Ilgar_Gurbanov_Energy_Security_Dimension_in Foreign_Policy_Strategic_Outlook_2013[165]

[25] Nəsirov E. "Azərbaycanın neft və qaz sənayesi, nailiyyətlər və perspektivlər "//Azərbaycan FOCUS, Bakı, SAM, 2010, 2/2/ səh. 75-85, Nəsirov, E. "Azərbaycan

Bununla yanaşı, sözügedən elmi əsərlərdə Azərbaycan neft-qaz siyasətini qloballaşma və geosiyasi proseslər kontekstində araşdırmışlar. Bütün bunlarla yanaşı, Azərbaycanın enerji siyasətinin xüsusiyyətləri də elmi tədqiqatların obyekti kimi diqqət mərkəzində olmuşdur.

Dissertasiya işi ilə əlaqədar məsələlər müxtəlif xarici strateji araşdırma mərkəzlərinin məsələn, ABŞ Konqresinin Tədqiqat Xidməti (Congressional Research Service)[26], analitik məqalə və hesabatlarda, Beynəlxalq Enerji Agentliyinin[27], Azərbaycan Dövlət Statistika Komitəsinin[28] statistik məlumatlarında da təqdim edilmişdir.

Qərbin, xüsusilə ABŞ-ın nüfuzlu dövlət xadimləri Q. Kissincer, R. Dannreuther, Z. Bjezinksi əsər və çıxışlarında Avrasiya məkanı, Xəzər hövzəsi karbohidrogenlərin ABŞ-ın müstəsna milli maraq dairəsinə daxil olması, dünya güclərinin Xəzərətrafı dövlətlərə, habelə Azərbaycana marağının artdığını vurğulayırlar.[29]

Müasir dövr neft-qaz ehtiyatları kimi nəzəri, enerji təhlükəsizliyi kimi siyasi məsələlər Necdet Pamirin "Enerjinin iqtidarı: Enerji mənbələrini əlində saxlaya bilən dünyanı əlində saxlayar"[30] adlı tədqiqatında bu qənaətə gəlmişdir ki, müasir beynəlxalq münasibətlər sistemində dövlətin gücü onun enerji resurslarına malik olub-olmaması ya da ən azından tranzit ölkə olması prizmasından dəyərləndirilməlidir.

---

Avropanın yeni və eribarlı enerji təminatçısı kimi" // Xalqqazeti. – 2020, 22 sentyabr. – s. 2.

[26]Ratner, M., Belkin , P., Nichol, J., Woehrel, S., Europe's Energy Security: Options and Challenges to Natural Gas Supply Diversification August 20, 2013 (internet resursu) https://sgp.fas.org/crs/row/R42405.pdf, , U.S. Energy in the 21st Century: A Primer March 16, 2021 (internet resursu) https://crsreports.congress.gov/product/pdf/R/R46723

[27] "Global gas markets moved towards a gradual rebalancing over the 2022 and 2023 heating season, following the supply shock sparked by Russia's invasion of Ukraine in February 2022" (internet resursu) https://www.iea.org/fuels-and-technologies/gas

[28] https://www.stat.gov.az/source/balance_fuel/

[29] Kissinger, H. (1994). Diplomacy. New York: Simon & Schuster; Dannreuther R., "International Relations Theories: Energy, Minerals and Conflict", POLINARES, EU Policy on Natural Resources, September, 2010, pp. 25, Бзежинский З. Великая шахматная доска. Господство Америки и ее геостратегические императивы/ http://lib.ru/Politolog/America bzhezinskij.txt, Бзежинский. З., М.: Международные отношения, 2005.

[30] Pamir N., Enerjinin İktidarı-Enerji Kaynaklarını Elinde Tutan, Dünyayı Elinde Tutar s.28

Müasir siyasi proseslər baxımından məşhur belçikalı jurnalist Mişel Kollon "Neft, PR, müharibə" əsərində enerji məsələlərinə olduqca aktual prizmadan yanaşaraq iddia edir ki, bu gün yeganə fövqəldövlət olan ABŞ-ın siyasətinin əsas məqsədi potensial rəqibləri olan Çin, Rusiya, Avropanın iqtisadi və hərbi inkişafını ləngitməkdir. Müəllifin qənaətinə görə neftin hasilatı və nəqlinə kim nəzarət edirsə, ondan asılı olan bütün ölkələrin iqtisadiyyatına da o nəzarət edir.[31]

Digər tərəfdən beynəlxaq münasibətlər sistemi hər gün yeni qlobal çağırışlarla üz-üzə qalır və çox dəyişkən simaya malikdir. Avropa İttifaqının həm regionunda, həm dünyada, həm də ümumilikdə ölkəmizlə olan ikitərəfli və çoxtərəli münasibətlərə dair formalaşdırdığı siyasət də müəyyən dəyişikliklərlə müşahidə olunmuşdur.

İkitərəfli və çoxtərəfli münasibətlərdə hələ də həllini gözləyən bir sıra məsələlərin mövcudluğunu nəzərə alsaq, həmin problemlərin aradan qaldırılması üçün onların yenidən araşdırılaraq, çatışmazlıqlarının üzə çıxarılması münasibətlərin daha hamar yolla irəliləməsinə müsbət təsir göstərə bilər.

Beləliklə, mövzu üzrə elmi ədəbiyyatın təhlili göstərir ki, məsələ müxtəlif aspektlərdən araşdırılsa da, qeyd edilən əsərlərdə məqsəd olaraq konkret şəkildə Avropanın enerji təhlükəsizliyi və Cənub Qaz Dəhlizinin tədqiqi aparılmamış, mövzunun ayrı-ayrı məqamlarına və aspektlərinə xüsusi diqqət yetirilsə belə problemin təhlili bütünlüklə əhatə olunmamış qalır.  Bu da təqdim olunan tədqiqat işinin əhəmiyyəti və dəyərini şərtləndirir. Məhz buna görə də bu istiqamətdə geniş və sistemli araşdırmaya zərurət yaranmışdır. Bütün bu sadalanan amillərin hər biri bir-biri ilə sıx bağlı olduğundan onları nəzərə alaraq mövzunun kompleks şəkildə yenidən araşdırılmasına cəhd göstərilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini beynəlxalq münasibətlər sistemində Avropanın enerji təhlükəsizliyi siyasəti, **predmetini** isə bu siyasətin şaxələndirilməsi işində Cənub Qaz Dəhlizinin reallaşdırılması prosesi, onun xüsusiyyətləri və istiqamətləri, eləcə də perspektiv inkişaf imkanları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Avropanın enerji təhlükəsizliyi kontekstində Cənub Qaz Dəhlizinin təhlil edilməsidir. Bunun üçün Avropanın enerji təhlükəsizliyinin aspektlərini

---

[31] Коллон, М. "Нефт, PR и война"стр 65-66

müəyyən etmək, Avropanın enerji təhlükəsizliyinin təminatı yollarını araşdırmaq və bu yolda alternativ enerji mənbələrini üzə çıxartmaq və əsas olaraq Cənub Qaz Dəhlizi layihəsinin ərsəyə gəlməsinin tarixi aspektlərini və seqmentlərini, inkişaf strukturunu təhlil etməklə kompleks şəkildə elmi əsaslarla tədqiq edilməsindən ibarətdir.

Tədqiqat işi qarşısında qoyulmuş məqsədə nail olmaq üçün əsas vəzifələr aşağıdakı kimi müəyyən edilmiş və yerinə yetirilmişdir:

- Qlobal proseslər və dəyişikliklər fonunda beynəlxalq enerji təhlükəsizliyi sistemində Avropanın yerinin müəyyənləşdirilməsi;
- Enerji təhlükəsizliyinin milli təhlükəsizliyin mühüm elementi kimi araşdırılması;
- Azərbaycanın Avropanın yeni və alternativ enerji mənbəyi qismində araşdırılması;
- Avropa İttifaqı və Azərbaycan Respublikası münasibətlərində enerji amilinin yerinin tədqiq olunması;
- Avropanın enerji təhlükəsizliyi məsələsində beynəlxalq aktorların (əsasən Rusiya, ABŞ) və bir sıra digər tərəflərin ənənəvi maraqlarının formalaşmasına təsir edən amillərin araşdırılması;
- Avropa İtiifaqının enerji təhlükəsizliyinin təmin olunması məsələsində alternativ enerji mənbələrinə ümumi nəzər yetirilməsi;
- Cənub Qaz Dəhlizinin reallaşdırılması baxımından Azərbaycanın təşəbbüskar ölkə qismində çıxış etməsinin əhəmiyyətinin göstərilməsi;
- Cənub Qaz Dəhlizinin xarakteristikası və onun əsas seqmentlərinin araşdırılması;
- Problemə dair elmi-nəzəri ümumiləşdirmələr aparmaq, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Cənub Qaz Dəhlizinin perspektivlərini göstərmək.

**Tədqiqat metodları:** Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu və bununla əlaqədar olaraq Avropa İttifaqı və Azərbaycan münasibətlərində enerjinin xüsusi istiqamət olması ilə əlaqədar Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarından irəli gələn, eləcə də ümumilikdə mövzuya dair elmi ədəbiyyatdakı konseptual yanaşmalar tədqiqat işinin nəzəri əsasını təşkil edir. Elmi işdə Avropanın enerji təhlükəsizliyi və Cənub Qaz Dəhlizinin bu məsələyə təsiri araşdırılarkən

beynəlxalq münasibətlər və siyasi elmlər sahəsində qəbul edilmiş siyasi hadisələrə obyektiv yanaşma, analiz və sintez, ümumiləşdirmə, induksiya və deduksiya, tarixi təsvirin müqayisəli və sistemli siyasi təhlil metodları, məntiqilik metodoloji üsulları, sənədlərin öyrənilməsi də dissertasiya işində öz əksini tapmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

1. Avropanın enerji təhlükəsizliyinin təmin olunması qitənin enerji təhlükəsizliyinin əsasıdır
2. Avropanın enerji təhlükəsizliyinin təmin olunması üçün Azərbaycan (onun enerji resursları) Avropanın yeni, alternativ təminatçısıdır
3. Avropa-Azərbaycan münasibətlərində enerji əsas amillərdən biridir
4. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında alternativlərdən biri də Cənub Qaz Dəhlizidir
5. Cənub Qaz dəhlizi iştirakçı tərəflərə həm iqtisadi, həm siyasi dividentlər verir
6. Cənub Qaz Dəhlizi hal-hazırda layihəyə qoşulmaq istəyən ölkələr üçün cəlbedicidir

**Tədqiqatın elmi yeniliyi.** Elmi yenilik mövzunun aktuallığı və siyasi əhəmiyyəti nəzərə alınmaqla, habelə, tədqiqat probleminin quruluşu ilə müəyyənləşdirilmişdir. Tədqiqat işində əldə edilmiş elmi yeniliyi aşağıdakı müddəalarla ifadə etmək olar:

- Azərbaycan siyasi elmində tədqiqat işi olaraq ilk dəfə Cənub Qaz Dəhlizinin alternativ enerji layihələri ilə müqayisəli şəkildə təhlili aparılmışdır
- Cənub Qaz Dəhlizinin reallaşmasında Avropanın enerji təhlükəsizliyi siyasətinin bir hissəsi olduğu ilk dəfə araşdırılmışdır
- Azərbaycan siyasi elmində tədqiqat işi olaraq ilk dəfə milli təhlükəsizliyin tərkib hissəsi olan enerji təhlükəsizliyi mövzuya dair müxtəlif nəzəri yanaşmalar və baxışların elmi aspektdən müqayisəli təhlili aparılmış, problemin beynəlxalq münasibətlər kontekstindən öyrənilməsi ilə yanaşı cari zamanda layihəyə qoşulmaq istəyən ölkələrin maraqları əsaslandırılmışdır
- Cənub Qaz Dəhlizi layihəsinin reallaşdırılması və sonrakı mərhələdə ona qoşulmaq istəyən ölkələrin marağı Azərbaycanın beynəlxalq münasibətlər sistemində yürütdüyü məqsədyönlü xarici

siyasətin uğurlu elementidir və bu məsələnin Ermənistan-Azərbaycan müharibəsi sonrası Azərbaycana siyasi dividentlər qazandırdığı qədər Avropa İttifaqının da regionda maraqlarının təmin olunması baxımından qarşılıqlı maraq kəsb etdiyi araşdırılmışdır

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti onunla əsaslandırıla bilər ki, o, Avropanın enerji təhlükəsizliyinin təmin olunması və Cənub Qaz Dəhlizinin reallaşdırılması istiqamətində cərəyan edən siyasi və iqtisadi proseslərin mahiyyətinin dərk edilməsinə ciddi töhfə verir. Bununla yanaşı, Avropanın enerji təhlükəsizliyi siyasətinin prioritetləri və prinsipləri, qarşıda duran çətinliklərin və perspektivlərin araşdırılması, Cənub Qaz Dəhlizi layihəsində iştirak edən və gələcəkdə cəlb olunma ehtimalı olan aktorların iştirakı haqqında dolğun təsəvvürlərin formalaşması baxımından da tədqiqat vacib nəzəri əhəmiyyət kəsb edir.

Tədqiqatın praktiki əhəmiyyəti onunla əsaslandırıla bilər ki, onun əsas müddəalarından və nəticələrindən Azərbaycan Xarici İşlər Nazirliyi, xarici siyasət institutlarının, digər müvafiq dövlət strukturları, eləcə də beynəlxalq və regional enerji layihələri ilə bağlı dövlət və qeyri-hökumət təşkilatlarının praktiki fəaliyyətlərində istifadə edilə bilər. Dissertasiya işinin əsas müddəaları və nəticələri bu istiqamətdə gələcək tədqiqat işlərinin aparılmasında, ali təhsil müəssisələrində metodik vəsait kimi “Beynəlxalq münasibətlər”, “Enerji siyasəti”, “Politologiya”, “Regionşünaslıq”, “Dünya siyasəti”, “İqtisadiyyat” və bu kimi fənlərin tədrisi üçün mühazirə və elmi seminar materiallarının, dərsliklərin hazırlanmasında istifadə edilə bilər. Bununla yanaşı, milli və transmilli neft və qaz şirkətlərinin, özəl enerji şirkətlərinin perspektivdə nəzərdə tutulan layihələrin reallaşdırılmasında qarşıda duran problemlərin öngörülməsi və maneələrin aradan qaldırılmasında elmi baza təminatı qismində istifadə oluna bilər. Habelə bu sahədə çalışan mütəxəssislər üçün vəsait ola bilər.

**Tədqiqat işinin aprobasiyası və nəticələrinin tətbiqi.** Dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin ingilis və azərbaycan dillərində olmaqla Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan Azərbaycanda və xaricdə nəşr olunan elmi jurnallarda, habelə müxtəlif yerli və xarici ali məktəblərdə keçirilən doktorant və dissertantların elmi-praktiki konfranslarının materiallarında, əlavə

olaraq nüfuzlu beyin mərkəzlərində (Jamestown, Eurasiareview, TESPAM) elmi məqalə və tezislər formasında dərc olunmuşdur.

**Dissertasiya işininin yerinə yetirildiyi təşkilatın adı.**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrası.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, iki fəsil, altı yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyatdan ibarətdir. Dissertasiyanın giriş hissəsi 21 657 işarə, üç paraqrafdan ibarət olan birinci fəsil 90 331 işarə, üç paraqrafdan ibarət olan ikinci fəsil 100 419 işarə, nəticə 7 248 işarə, ümumi həcmi 265081 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi və mənbə bazası təhlil edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, işin elmi yeniliyi və praktik əhəmiyyəti göstərilmişdir.

"Beynəlxalq enerji təhlükəsizliyi sistemində Avropanın yeri və rolu" adlı birinci fəsil üç paraqrafdan ibarətdir. Bu fəslin **"Enerji təhlükəsizliyi milli təhlükəsizliyin mühüm elementi kimi"** adlanan **birinci paraqrafında** göstərilir ki, enerji təhlükəsizliyi milli təhlükəsizliyin önəmli struktur elementlərindən biri hesab olunur. Paraqrafda enerji təhlükəsizliyinin siyasi məfhum kimi meydana çıxmasının tarixi inkişaf prosesinə nəzər yetirilir.

Eyni zamanda, dissertasiyanın bu hissəsində enerji qaynaqlarının rolu konseptual şəkildə tədqiq olunur və göstərilir ki, nəzəri bir məlumat əldə etmədən enerji təhlükəsizliyini və ya enerji diplomatiyasını təhlil etmək son dərəcə çətindir. Bu baxımdan da beynəlxalq münasibətlər sisteminin bir neçə nəzəriyyəsinə işıq tutulur. Məsələn, müasir realizmin qurucusu Hans Morgenthaunun, daha sonra James Dougherty və Robert Pfaltzgraff'ın, bir digər siyasi məktəb hesab olunan neo-realizmin qurucusu Kenneth Waltz'ın, John Mearsheimer'in (Hücumçu Realizmin qurucusu), Michael Klare'in təhlilləri araşdırılır.

Daha sonra enerji təhlükəsizliyinin aktuallıq alması yüksək neft və qaz qiymətləri ilə əlaqələndirilir. Paraqrafda belə qənaətə gəlinir ki, çox

uzaq gələcəkdə deyil, qarşıdan gələn onilliklərdə dünyanın enerji tələbatını ödəmək üçün kifayət qədər mənbələrin olub-olmayacağına dair narahatlıq artmaqda davam edir. Bu məsələyə dair uyğunluqlar və ziddiyyətli baxışlar təqdim olunur.

Birinci fəslin **“Avropanın enerji təhlükəsizliyi siyasəti və onun təminatı yolları”** adlı **ikinci paraqrafında** qeyd edilir ki, enerji təhlükəsizliyi məsələsi ilk dəfə 1973-74-cü illərdəki neft böhranı dövründə Avropa gündəminə çıxsa da Aİ yalnız son illərdə ortaq bir enerji siyasətinin formalaşdırılması və həyata keçirilməsi istiqamətində ciddi səylər göstərdi.

Avropa İttifaqı liderləri 2007-ci ilin mart ayında baş tutan sammitdə a) rəqabət qabiliyyətinə, b) tədarük təhlükəsizliyinə və c) enerjinin davamlılığına yönəlmiş üç sütunlu bir istiqaməti özündə ehtiva edən strategiya qəbul etdilər. Sammitin nəticələrinə əsasən, qlobal enerji tələbatının artması, Avropanın enerji istehsalının azalması, Rusiya enerjisinin etibarlılığı ilə bağlı narahatlıqlar, enerji qiymətlərinin artması və iqlim dəyişikliyinə uyğunlaşma zərurəti fonunda “Avropa üçün enerji siyasəti” adı altında qəbul edildi. Bildirilir ki, buna baxmayaraq, ortaq bir enerji təhlükəsizliyi siyasətinin həyata keçirilməsində maneələr qalmaqda davam edir.

Bir çox üzv dövlətlər suverenliyin Avropa İttifaqı səviyyəsinə köçürülməsinə ehtiyatla yanaşmağa davam edir, çünki enerji əsas daxili siyasət məsələsidir və milli iqtisadiyyatın inkişafı üçün əsas şərtdir.

Bu fəslin “**Avropanın enerji təhlükəsizliyinin formalaşmasında beynəlxalq aktorların rolu” adlı üçüncü paraqrafında** aktual proseslərə diqqət çəkilməklə yanaşı son zamanlarda “enerji təhlükəsizliyi” konsepsiyasının üçüncü komponentlə zənginləşdirildiyi - davamlı enerji ritorikasının mütəmadi olaraq "etibarlı, təhlükəsiz, dayanıqlı və sərfəli enerjiyə" ehtiyac tezisini qyi bildirilir.

Daha öncəki illərdə Rusiya tərəfindən göstərilən etimadsızlıq Avropa İttifaqı ölkələrini məcbur etdi ki, enerji təhlükəsizliyinin şaxələndirilməsi və alternativ enerji mənbələrinin axtarılması işinə daha ciddi yanaşılsın. Bir sıra seçimlər mövcud olmaqla yanaşı, bu məsələdə Avropa İttifaqı ölkələri arasında dərin fikir ayrılığı da mövcud idi. Məsələn, Almaniyanın fərqli bir baxışı mövcud idi. Belə ki, bu Rusiyanı birbaşa onun ən böyük idxalatçısı olan Almaniya ilə birləşdirən Şimal

axını boru kəmərinin inşasını təşviq etmək üçün Almaniyanın seçimini əhatə edir.

Bundan əlavə Rusiya, Macarıstan, Rusiya və Bolqarıstanı birləşdirən Qara dəniz üzərindən Cənub Axını boru kəmərinin çəkilməsinə dair öhdəlik götürdü. Bütün bu layihələr Ukrayna və Belarus kimi tranzit ölkələrdən yan keçməkdədir.

Daha da əhəmiyyətlisi, Litva və Polşa kimi Rusiya siyasətini daha tənqidi hesab edən ölkələrdən də yan keçməkdədir. Almaniyanı da əhatə edən bəzi Avropa ölkələri, Şimal Axını kimi layihələrin Rusiya təchizatı üçün alternativ yollar təklif edərək Avropa təhlükəsizliyini yaxşılaşdırdığını müdafiə edərkən, Polşa və Litva kimi digər Avropa İttifaqı dövlətləri bu layihəyə qarşı çıxdılar və Rusiyanın enerji təminatçısı kimi etibarlılığını sorğulamağa başladılar.

Tənqidçilər düşünürlər ki, "Şimal axını" kimi layihələr Rusiyanı boru kəmərindən yan keçmiş ölkələrlə münasibətlərində əlavə iqtisadi və siyasi təsir vasitələri ilə təmin edə bilər.

Əl-Cəzayir Avropa İttifaqının üçüncü ən böyük təminatçısıdır. Rusiyanın təbii qazını Avropanın uzun istiqamətlərinə nəql etmək üçün Avropa və Rusiya şirkətləri hərtərəfli bir infrastruktur şəbəkəsini inkişaf etdirdilər. Analitiklər gələcək əsrlər boyu da təbii qazın Avropa ilə Rusiya arasındakı münasibətlərdə əhəmiyyətli bir rol oynayacağını düşünürlər.

Tədqiqatın ikinci fəsli **"Azərbaycan Avropanın yeni və alternativ enerji mənbəyi kimi"** adlanır və üç paraqrafdan ibarətdir. **"Avropa İttifaqı və Azərbaycan Respublikası münasibətlərində enerji amili"** adlanan birinci paraqrafında Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında tərəfdaşlığın əsas istiqamətlərindən birini enerji təhlükəsizliyinin təşkil etdiyi bildirilir.

Aydın mənzərədir ki, son zamanlarda enerji təhlükəsizliyi dünyanı və xüsusilə də Avropa İttifaqını dərindən düşündürən ən önəmli məsələyə çevrilib. Azərbaycan isə zəngin karbohidrogen ehtiyatlarına malik olmaqla yanaşı, dünya bazarlarına çıxış yollarına da sahibdir.

Məhz bu səbəbdən da hal-hazırda enerji təhlükəsizliyi məsələsi Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının önəmli tərkib hissəsinə çevrilmişdir. Qərb Azərbaycanı özünün enerji təhlükəsizliyinin əsas təminatçılarından biri hesab edir.

2011-ci ildə Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə imzalanmışdır. Başlanğıcda

Azərbaycan bir qurucu tərəf ya da Avropa İttifaqı ilə münasibətlərdə nisbətən zəif tərəf kimi görünürdüsə, hazırda Cənubi Dəhlizin formasını və gələcəyini müəyyənləşdirən əsas oyunçudur. Bu, həm də Avropa İttifaqının Azərbaycanla bağlı strategiyalarında boru kəmərlərini artıq danışıqlar vasitəsi (negotiating instrument) kimi istifadə etməyəcəyi, əksinə Azərbaycana Avropa İttifaqı ilə münasibətlərində daha çox səlahiyyət verəcəyi anlamına gəlir. Bu səbəbdən Avropa İttifaqı Azərbaycanla münasibətlərinə xüsusi diqqət yetirir.

Bu hissədə 2021-ci il iyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bakıya rəsmi səfərdə olan Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel arasında birgə keçirilən mətbuat konfransından və Prezident İlham Əliyevin 2021-ci il dekabrın 15-də Brüsseldə keçirilən VI Şərq Tərəfdaşlığı Sammitindən, 2022-ci ildə 18 iyul tarixində Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin Bakıya səfəri zamanı imzalanmış birgə Anlaşma Memorandumundan bəhs olunur.

İkinci fəslin ikinci paraqrafı **“Cənub Qaz Dəhlizinin xarakteristikası və onun əsas seqmentləri”** adlanır ki, bu hissə əvvəlcə Z.Bzejinski, R. Morninqstar kimi strateqlərin fikirləri əsasında təhlil olunur. Məşhur Amerika politoloqu Z. Bjezinskinin, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri və həmin ölkənin Avrasiya enerji məsələləri üzrə xüsusi elçisi Riçard Morninqstarın fikirlərinə müraciət olunur. Cənub Qaz Dəhlizi, Avropa İttifaqının Rusiyaya etibarını azaltmaq ümidi ilə Avropaya gedən yolların və qaz ehtiyatlarının şaxələndirilməsini asanlaşdırmaq üçün Avropa Komissiyasının bir layihəsidir. Bildirilir ki, dəhlizin bir hissəsini təşkil edən Avropa İttifaqının qabaqcıl Nabukko layihəsi ilə birlikdə Cənub Qaz Dəhlizi, əvvəlcə Qərbin hədəflərini (formal olaraq Avropa İttifaqı, amma əslində ABŞ da daxil olmaqla) dəstəkləmək üçün layihənin icrası halına gətirilsə də demək olar ki, yalnız Azərbaycan və Türkiyənin qurduğu strategiyalar sayəsində mümkün oldu.

Cənub Qaz Dəhlizinin Xəzər təbii qazının Avropaya nəqlinə yönələn nəhəng bir qaz kəməri olduğundan və Şahdəniz II Təbii Qaz Sahəsi, Cənubi Qafqaz Boru Kəməri (CQBK), Trans Anadolu Təbii Qaz Boru Kəməri (TANAP), Trans Adriatik Boru Kəməri (TAP) olmaqla dörd seqmentindən bəhs olunur. Azərbaycanın iqtisadi-maliyyə gücünün artmasına, Azərbaycanın və Avropanın enerji təhlükəsizliyinin təmin

edilməsinə xidmət edən Cənub Qaz Dəhlizi layihəsinin bütün seqmentləri fəaliyyətdədir.

Bu gün Azərbaycan dünya bazarında böyük qaz ixracatçısıdır. Tarixdə ilk dəfə Azərbaycan öz təbii qazını Avropa bazarına birbaşa boru xətləri vasitəsi ilə çıxarmağa nail oldu. Cənub Qaz Dəhlizinin uğurla başa çatması ölkə iqtisadiyyatına əlavə dəyər qazandırmaqla yanaşı, həm də Azərbaycanın iqtisadi müstəqilliyinin güclənməsi anlamına gəlir.

2020-ci ilin 27 sentyabrında başlayan və 44 gün davam edən Vətən müharibəsində tarixi qələbə qazanan Azərbaycan Cənubi Qafqaz regionunda yeni iqtisadi güc statusu qazanıb. "Cənub Qaz Dəhizi" nin tamamlanması son illərin ən əlamətdar hadisələrindən biridir.

Fəslin "**Avropa və Azərbaycanda bərpa olunan enerji mənbələrinin inkişafı" adlı üçüncü paraqrafında bildirilir ki,** ənənəvi resursların azalması, habelə yanacaq növlərinin qiymətlərinin qeyri-stabil olması, neft və qaz resurslarının ölkələrin siyasi və geoloji maraqlarına xidmət üçün təzyiq vasitəsi kimi istifadə edilməsi, bu yanacaq növlərinin istifadəsinin ekoloji tarazlığın pozulmasında mühüm rol oynaması gündən-günə bərpa olunan enerji mənbələrinə marağı artırır.

Bərpa olunan enerji, Avropa İttifaqında böyük paya malikdir və enerji sistemində əhəmiyyət kəsb edir. Ümumi son enerji istehlakında statistik hissə, 2016-cı ilin sonunda 17% təşkil edirdi. Bu göstərici 2004-cü ildəki istehlakın (8.5%) təxminən iki qatına bərabərdir. Avropa İttifaqının enerji sisteminin aşağı səviyyəli şaxələndirmə, idxaldan asılılıq, baha enerji qiymətləri, təhlükəsizlik məsələləri, artan enerji tələbatı, iqlimin pisləşməsi və aşağı enerji səmərəliliyi kimi bir sıra problemlərlə üzləşdiyi həqiqətdir.

Aİ, enerji bazarında bərpa olunan enerji mənbələri və yeniliklərin köməyi ilə bu çətinliklərlə mübarizə aparmaq niyyətindədir. Bu istiqamətdə Avropa İttifaqı, 2020-ci ilin sonuna kimi Ümumi Son Enerji İstehlakının 20%-nə, 2030-cu ilin sonuna qədər isə 27%-nə çatma meyarlarını təyin edən Avropa 2020 Strategiyasını tətbiq edib. Avropa 2020 Strategiyası Avropa İttifaqının bərpa olunan enerjinin təşviqi ilə bağlı əsas siyasəti olan Bərpa olunan enerji Direktivi ilə həyata keçirilmişdir. Direktiv, Aİ daxilində alternativ enerji istifadəsini idarə edir. Bununla yanaşı, Aİ, bərpa olunmayan enerji mənbəyi olan ölkələrin potensial ölkələrdən yardım alması və hədəflərini yerinə yetirmək fürsəti yaratmaq üçün Əməkdaşlıq Mexanizmini tətbiq edir. Məsələn, bəzi Aİ

ölkələrində bərpa olunan enerji almaq üçün istifadə edilə bilən çaylar kimi daha çox mənbə var, digərlərində isə daha az enerji var.

Bildirilir ki, Azərbaycan da bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. 2020-ci ilin 9 yanvar tarixində Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri arasında bərpa olunan enerji üzrə pilot layihələrin həyata keçirilməsi ilə bağlı İcra müqavilələri imzalanıb. Cənab Prezident İlham Əliyev Qarabağın dirçəldilməsi prosesində bərpa olunan enerji mənbələrinin istifadəsinə, işğaldan azad edilmiş torpaqların yaşıl enerji zonası çevrilməsi işinə böyük əhəmiyyət verir.

Nəticədə, tədqiqata yekun vurularaq ümumiləşdirmələr aparılmış, onların əsasında nəzəri və praktiki əhəmiyyət kəsb edən təklif və tövsiyələr irəli sürülmüşdür. Müəllif bu qənaətə gəlmişdir ki, müasir dünyamızda enerji siyasəti siyasi müstəqillik və milli təhlükəsizlik baxımından olduqca böyük önəm daşıyan məsələlər kimi xarakterizə olunmaqdadır.

Mövcud reallıqlar göstərir ki, enerji XXI əsrin əsas determinatoru qismində çıxış edir. Avropa İttifaqı da üzləşdiyi problemlər səbəbilə enerji siyasəti, habelə enerji mənbələri, marşrutları və növlərinin şaxələndirilməsi kimi məsələləri siyasi gündəliklərində olduqca aktiv tutur. Daha ətraflı desək, 1970-ci illərdən bəri Rusiya qazının əsas istehlakçısı olan İttifaq, ABŞ və bəzi Şərqi Avropa ölkələri tərəfindən çoxlu tənqidlərə baxmayaraq, fasiləsiz enerji təchizatını təmin etmək üçün Rusiyadan gələn marşrutların şaxələndirilməsinə çalışır.

Digər tərəfdən isə Rusiyadan yüksək səviyyəli asılılığın tamamilə aradan qaldırılmayacağını dərk edən İttifaq, Rusiyadan başqa Azərbaycan, Norveç, Qətər, ABŞ və digər bir çox mənbədən də boru xətləri vasitəsilə və ya mayeləşdirilmiş təbii qaz (LNG) şəklində qaz əldə etməyə çalışır. Enerji layihələri və xüsusilə də Cənub Qaz Dəhlizi layihəsi tərəflərə həm iqtisadi, həm də siyasi dividentlər qazandırır, Aİ-Azərbaycan gələcək münasibətləri üçün fundamental zəmin yaradır. Həmçinin, Azərbaycanın qazandığı Qələbə Aİ-Azərbaycan münasibətlərinə də mövcud reallıq nəzərə alınaraq baxılması zərurətini yaradır.

Postmüharibə dövrünün ilk aylarında Aİ siyasətçilərinin bəyanatlarında Azərbaycana qarşı qərəzli yanaşmalar müşahidə edilirdisə,

son zamanlarda baş veren proseslər iki tərəf arasında münasibətlərdə yeni dövrün başlandığından xəbər verir. Aİ-Azərbaycan münasibətləri yeni geosiyasi reallıqlar kontekstindən inkişaf etdirilir və nəticə etibarilə Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında tərəfdaşlığın əsas istiqamətlərindən birini enerji təhlükəsizliyi təşkil edir və Cənub Qaz Dəhlizi Avropa İttifaqının alternativ enerji təchizatçısı qismində çıxış edir. Azərbaycan da öz qazını Avropa İttifaqına ixrac etməkdə maraqlıdır.

Cənub Qaz Dəhlizinin bütün dörd seqmentində əsas maliyyə yükünü Azərbaycan öz üzərinə götürüb. Mürəkkəb geosiyasi məkanda yerləşməsinə baxmayaraq əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın enerji strategiyası uzaqgörənlik, effektiv qərar qəbuletmə və koordinasiyalı fəaliyyət planı üzrə cənab Prezident İlham Əliyev tərəfindən uğurla icra olunur. Məhz bu xarici siyasət kursu Azərbaycanı regionda və dünyada etibarlı tərəfdaş kimi tanıdır.

Azərbaycanın dünyanın enerji sistemində artan əhəmiyyətli rolu, transmilli enerji bazarlarında özünəməxsus yeri və Avropanın enerji təhlükəsizliyində fəal iştirakı qlobal, regional, geosiyasi və geoiqtisadi mövqeyinə mühüm təsir göstərir. Elə bu səbəbdəndir ki, dünya dövlətləri, Cənub Qaz Dəhlizi layihəsində iştirak etməyən dövlətlər bu layihəyə qoşulmaq niyyətlərini ifadə edir, Şərq-Qərb, Şimal-Cənub nəqliyyat kommunikasiyaları və dəhlizlərinin, həm də Xəzər dənizində geostrateji rəqabətin mərkəzində duran Azərbaycanla əməkdaşlıq etməkdə maraqlıdırlar ki, Azərbaycan da bu məsələyə müsbət baxır. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında ortaya qoyduğu mövqe də olduqca açıqdır. Belə ki, enerji və siyasət bir-birindən ayrı tutulur, Cənub Qaz Dəhlizi enerji layihəsi olaraq görülür, süni qiymət artımlarından uzaq fəaliyyət həyata keçirilir. Xəzəryanı dövlətlərlə, xüsusilə də Azərbaycanla Avropa arasında münasibətlərdə enerji ehtiyatları zəminində davam edəcək əlaqələr hələ uzun illər öz aktuallığını və əhəmiyyətini qoruyub saxlayacaqdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**

1. “Energy security policy of Europe and Southern Gas Corridor Project” “Avropanın enerji təhlükəsizliyi və Cənub Qaz Dəhlizi layihəsi” (İngilis dilində) DİA, “Dövlət İdarəçiliyi” Nəzəriyyə və

təcrübə N-2 (66), 2019, Səh. 281-290

2. “Energy security policy of Europe and the ways of ensuring it” “Avropanın enerji təhlükəsizliyi və onun təminatı yolları” (İngilis dilində) DİA, “Dövlət İdarəçiliyi” Nəzəriyyə və təcrübə N-4 (68), 2019, Səh. 275-282
3. “Avropanın enerji təhlükəsizliyi və Cənub Qaz Dəhlizi layihəsi” //Azərbaycanın böyük şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş “Doktorant və gənc tədqiqatçıların XXIII Respublika elmi konfransının materialları” – 3-4 Dekabr 2019. Bakı. Azərbaycan Memarlıq və İnşaat Universiteti Səh. 29-32
4. “Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsində dövlət idarəçiliyi mexanizmlərinin tətbiqi və insan resurslarının idarə olunması” (çıxış və sertifikat) Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin dəstəyi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi Şurasının təşkilatçılığı ilə baş tutmuş “Dövlət qulluğunda insan resurslarının idarə olunması: beynəlxalq trendlər və milli təcrübələr” adlı konfrans 5-6 dekabr 2019-cu il
5. “Azərbaycanın enerji siyasəti və Cənub Qaz Dəhlizi layihəsi”// “Heydər Əliyev ideyaları və Müasir Azərbaycan” mövuzunda Doktorant və Dissertantların elmi-praktiki konfransının materialları – 2019. Bakı. DİA Səh. 173-180
6. “Energy Security as an important element of national security” “Enerji Təhlükəsizliyi milli təhlükəsizliyin vacib elementi kimi” (ingilis dilində məqalə), Geostrategiya jurnalı. “Azərbaycan” nəş-riyyatı, Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal, N-01 (55), Yanvar-Fevral 2020, Səh. 18-21
7. “Azerbaijan as Europe’s new and alternative energy provider” “Azərbaycan Avropanın yeni və alternativ enerji təminatçısı kimi”, (ingilis dilində) //“Science, Society, Education, Topical Issues and Development Prospects” Abstract of III international scientific and practical conference” konfransının materialları, 17-18 fevral, 2020, Xarkov, Ukrayna Səh. 302-304, https://sci-conf.com.ua/iii-mezhdunarodnaya-nauchno-prakticheskaya-k/
8. “Energy security policy of Europe and Southern Gas Corridor Project” “Avropanın enerji təhlükəsizliyi və Cənub Qaz Dəhlizi layihəsi” (İngilis dilində)// “Əbdürrəhim bəy Haqverdiyevin 150

illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı" ilə "Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyinə həsr olunmuş Beynəlxalq elmi-praktik konfrans" XXI əsrdə elm və təhsil: nəzəriyyə və təcrübə konfrans? 20-21 fevral 2020, Qars şəhəri, Türkiyə Səh. 181-190, https://elger-etm.com/konfranslar/arxiv-konfrans/29-xx-esrde-elm-ve-tehsil-nezeriyye-ve-tecrube-adli-beynelxalq-elmi-praktik-konfrans-20022020-21022020.html

9. "Avropa İttifaqı və Azərbaycan Respublikası münasibətlərində enerji amilinin yeri və rolu", Geostrategiya jurnalı. "Azərbaycan" nəşriyyatı, Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal, N-02 (56), Mart-aprel, 2020, Səh. (15-19)
10. "Characteristics of Southern Gas Corridor and Main Segments of it" "Cənub Qaz Dəhlizinin xüsusiyyətləri və əsas seqmentləri" (məqalə, İngilis dilində), DİA, "Dövlət İdarəçiliyi" Nəzəriyyə və təcrübə N-2 (70), Aprel-May-İyun 2020, Səh. 287-294
11. Energy security of Europe and southern gas corridor. (Енергетична безпека Європи та південний газовий коридор). "Avropanın enerji təhlükəsizliyi və Cənub Qaz Dəhlizi" (İngilis dilində) ВГО Українська академія наук Видавництво «Гілея» "Гілея: науковий вісник": Збірник наукових праць.- Київ – 2020, Випуск 157 (No 6-9) Ч. 3. Політичні науки, УДК 89, ISSN 2076-1554, Səh. 29-32, http://www.gileya.org/index.php?ng=library&cont=long&id=231
12. "Trans-Adriatik Boru kəməri-TAP layihəsi çərçivəsində görülən işlər hansı mərhələdədir? Bakıdan mövqe" (Where Does the TAP Gas Pipeline Project Stand to Date? The View From Baku) (məqalə, ingilis dilində), ABŞ-ın "Jamestoun" Qlobal Tədqiqat və Təhlil Fondu (The Jamestown Foundation-Global Research & Analysis) 30 iyun, 2020, ABŞ Vaşinqton Publication: Eurasia Daily Monitor Volume: 17 Issue: 94, https://jamestown.org/program/where-does-the-tap-gas-pipeline-project-stand-to-date-the-view-from-baku/
13. "Avropanın enerji təhlükəsizliyi siyasəti"// "Energy Security Policy of Europe" (İngilis dilində, məqalə) Alınteri Sosyal Bilimler Dergisi (2020) 4(2): Səh. 163-172 dergipark.org.tr/en/pub/alinterisosbil Alınteri Journal of Social

Sciences (2020) 4(2): 163-172 DOI: 10.30913/alinterisosbil.794254 31 dekabr 2020 Cild 4, sayı 2, ISSN 2564-6583 e-ISSN 2602-229X, https://dergipark.org.tr/tr/download/article-file/1287862

14. “Azerbaijan as Europe’s new and alternative energy provider” “Azərbaycan Avropanın alterativ enerji təminatçısı qismində” (ingilis dilində) “İnsan və biosfer” (MaB, UNESCO) Azərbaycan Milli Komitəsinin əsərləri, Ekoloji sivilizasiya davamlı inkişaf, Ətraf mühit illik nəşr, buraxılış Volume tom 15 2020, Səh. 349-358

15. “Aİ-Azərbaycan münasibətləri yeni geosiyasi reallıqlar kontekstində inkişaf edir”// “EU-Azerbaijan relations are developing in context of new geopolitical realities” (məqalə, ingilis dilində), 10 dekabr, 2021 https://www.eurasiareview.com/20122021-eu-azerbaijan-relations-are-developing-in-context-of-new-geopolitical-realities-oped/

Dissertasiyanın müdafiəsi "14" dekabr 2023-ci il tarixində saat 11⁰⁰ Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1001, Bakı şəhəri, Lermantov küçəsi, 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "13" noyabr 2023-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.11.2023
Kağızın formatı: A5
Həcmi: 45 279
Tiraj: 100